**Mirzə, M**. Ölmək var, dönmək yox // Respublika. - 2025. - 18 iyun. - **№ 123**. - S. 13.

Vətən müharibəsi şəhidi Türkay Nizami oğlu Hüseynli 1990-cı il noyabrın 25-də Bakı şəhərində anadan olub. Orta təhsilini Daxili Qoşunların Birinci Qarabağ müharibəsində şəhid olmuş giziri Etibar Şirəliyevin adını daşıyan 274 saylı orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2009-2010-cu illərdə Daxili Qoşunların Naxçıvanda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Müddətli hərbi xidmətini başa vurduqdan sonra elə həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsində qalaraq, 2012-ci ilin iyulunadək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə olan borcunu yerinə yetirməyə başlayıb. Zabit kimi xidmətini davam etdirmək arzusunda olan Türkay Hüseynli 2012-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə daxil olub. 2014-cü ildə bu hərbi təhsil ocağını bitirərək leytenant hərbi rütbəsi alan Türkay zabit kimi ilk olaraq qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində fəaliyyətə başlayıb. 2019-cu ilin fevralınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində xidmət edib. Yüksək döyüş hazırlığı, nümunəvi və qüsursuz xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif edilib.

Türkay Hüseynli xidmət etdiyi dövrdə iki dəfə Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında gizir və zabit komandir təməl kurslarında təhsil alıb. 2019-cu ilin iyulundan etibarən Daxili Qoşunların Sumqayıt şəhərindəki "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri vəzifəsində xidmət edib. Daxili Qoşunların "N" saylı hərbi hissəsində "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri mayor Ələsgər Muxtarov vaxtilə birgə xidmət etdiyi qrup komandirinin mərdliyi və qorxmazlığı haqqında bu gün də danışır: "44 gün davam edən Vətən müharibəsində dəstəmizin 6 nəfər hərbi qulluqçusu qəhrəmancasına vuruşaraq şəhid olub. Onlardan biri də qrup komandiri kapitan Türkay Hüseynlidir. O, istər nəzəri, istərsə də keçirilən praktiki məşğələlərdə ən aktiv qrup komandirlərindən biri idi. Qarşıya qoyulan bütün tapşırıqları vicdanla yerinə yetirir, şəxsi heyət üçün hər zaman nümunə göstərirdi... Yaxşı yadımdadır, döyüş öncəsi şəxsi heyətə tapşırıqlar verirdim. Bu vaxt Türkay qətiyyətlə dedi: "Cənab mayor, ölmək var, dönmək yoxdur". Sonra üzünü şəxsi heyətə tutdu: "Xüsusi təyinatlı illərlə yaşayır, lakin bir dəfə lazım olur. Azərbaycanın ərazi bütövlüyü uğrunda canımızdan keçməyə hazır olmalıyıq", - deyə qürur hissi ilə bildirdi. Gözündə heç zaman qorxu olmazdı. Elə döyüşə də gözünü qırpmadan atıldı. Onun qrupu döyüş tapşırıqlarının yerinə yetirilməsində rəşadət göstərdi" .

3 oktyabr 2020-ci il... Cəbrayıl istiqamətində gedən döyüş Türkayın son döyüşü oldu. Komandiri olduğu qrupun şəxsi heyəti ilə birgə rayonun Böyük Mərcanlı kəndi ətrafındakı yüksəklikdə düşmənin birinci müdafiə xəttini darmadağın etdi. Ermənilərin xeyli sayda

canlı qüvvəsi, eləcə də 8 tankı və 1 topu məhv edildi. Lakin düşmənin bu istiqamətdəki ikinci müdafiə səddinin yarılması uğrunda gedən şiddətli döyüş zamanı erməni snayperinin açdığı atəşi nəticəsində ağır yaralanan kapitan Türkay Hüseynli qəhrəmancasına şəhid oldu. Bu döyüşdə cəsur komandirlə birgə vuruşan Daxili Qoşunların digər hərbi qulluqçuları - çavuş Məmmədov Elvin Tərlan oğlu və əsgər Abasov Ayaz Nizami oğlu da qəhrəmancasına həlak oldular. Kapitan Türkay Hüseynli 2020-ci il oktyabrın 3-də Bakıdakı İkinci Fəxri xiyabanda dəfn edilib.

Azərbaycan Prezidentinin sərəncamları ilə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, eləcə də vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmiş Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 11 nəfər hərbi qulluqçusundan biri də şəhid kapitan Türkay Nizami oğlu Hüseynlidir. O, həmçinin "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına da layiq görülüb.

Şəhid zabitimizin atası Nizami Elyanar Türkay kimi şəhid oğullarımızla qürur duyduğunu deyir: "Türkayla sonuncu dəfə oktyabrın 2-də saat 18:20-də danışmışdıq. Özü zəng etmişdi. Dedi ki, problem yoxdur, hər şey yaxşıdır. Özünüzdən muğayat olun, məndən nigaran qalmayın. Müharibədə yoldaşları ilə birgə xüsusi igidlik göstəriblər. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv ediblər, texnikalarını ələ keçiriblər. Həmin döyüşdə oğlum Türkay şəhid oldu. Mənim oğlum sağdır, ölməyib, şəhidlər ölmürlər... ".

Odur ki, Vətən uğrunda canını qurban verən Türkay kimi igid, qəhrəman oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.